*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2023, № 2* *ISSN: 2663-2926*
*Səhifə: 106-110* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2023.2.106*

# Azərbaycan ədəbiyyatşünaslıq tarixində təzkirə janrı

**Gülşən Zeynalova**
Bakı Dövlət Universiteti
E-mail: gulsenz@bk.ru

**Annotasiya.** Klassik dövrdə ədəbi tənqidin mühüm ifadə vasitələrindən biri zikr etmək, anmaq, xatırlamaq mənalarını verən təzkirə janrı olmuşdur. Ədəbiyyat tarixçiliyi vəzifəsini yerinə yetirən təzkirələrdə şairlərin həyat və yaradıcılığı, şəxsiyyəti haqqında deyilmiş fikirlər öz əksini tapır. Müqəddimə, əsas hissə və xatimə olmaqla üç hissədən ibarət təzkirələr ədəbiyyatşünaslığın öyrənilməsində mühüm əhəmiyyətə malikdir. Lakin buna baxmayaraq, bəzi qaynaqlarda onların etibarlı mənbə olmaması da qeyd olunmaqdadır. Bunun səbəbi isə bəzi təzkirələrdə əsərlərin obyektiv qiymətləndirilməməsi, verilən məlumatların natamamlığı və şairlərin yaradıcılığının tam əhatə olunmamasıdır.

Orta əsrlərdə mövcud olan tənqidin digər ifadə vasitələrindən fərqli olaraq, təzkirə janrı haqqında Azərbaycan ədəbiyyatşünaslığında bir qədər geniş məlumat verilmişdir. Lüğətlərdə, nəzəriyyə kitablarında, eləcə də ayrı-ayrı tədqiqatçıların əsərlərində təzkirə janrı haqqında məlumat əldə etmək mümkündür.

Azərbaycan ədəbiyyatşünaslığında Sam Mirzə Səfəvinin “Töhfeyi-Sami”, Əhdi Bağdadinin “Gülşəni-şüəra”, Sadiq bəy Əfşarın “Məcməül-xəvas”, Lütfəli bəy Azərin “Atəşgədə”, Mir Möhsün Nəvvabın “Təzkireyi-Nəvvab” təzkirələri janrın maraqlı örnəkləridir. Azərbaycan ədəbiyyatında ilk təzkirənin müəllifi Sam Mirzə Səfəvi, Azərbaycan dilində yazılan ilk təzkirənin müəllifi isə Əhdi Bağdadi hesab olunur.

**Açar sözlər:** ədəbi tənqid, orta əsrlər, janr, klassik janr, təzkirə

**Məqalə tarixçəsi:** göndərilib – 01.11.2023; qəbul edilib – 16.11.2023

# Genre of tezkire in history of Azerbaijani criticism

**Gulshan Zeynalova**
Baku State University
E-mail: gulsenz@bk.ru

**Abstract.** In the classical period, one of the important means of expression of literary criticism was the genre of tezkire, which means to mention, to remember, to commemorate. Thoughts about the poets' lives, creativity, and personality are reflected in tezkires, which fulfill the task of literary historiography. tezkires, which consist of three parts: introduction, main part, and conclusion, are of great importance in the study of literary studies. However, some sources state that they are not a reliable source. The reason for this is the lack of objective evaluation of the works in some tezkires, the incompleteness of the information provided, and the lack of full coverage of the poets’ creativity.

In contrast to other means of expression of criticism that existed in the Middle Ages, the tezkire genre has been somewhat widely reported in Azerbaijani literary studies. It is possible to get information about the tezkire genre in dictionaries, theory books, as well as in the works of individual researchers.
In Azerbaijani literature, Sam Mirza Safavi's "Tohfeyi-Sami", Ahdi Baghdadi's "Gulshani-Shuara", Sadiq Bey Afshar's "Majmaul-Khawas", Lutfali Bey Azer's "Atashgada", Mir Mohsen Nawab's "Tazkireyi-Nawab" are interesting examples of the genre. The author of the first tezkire in Azerbaijani literature is Sam Mirza Safavi, and the author of the first tezkire written in the Azerbaijani language is Ahdi Baghdadi.
**Keywords:** literary criticism, Middle Ages, genre, classical genre, tezkire

**Article history:** received – 01.11.2023; accepted − 16.11.2023

## Giriş / *Introduction*

Klassik dövrdə ədəbiyyat tarixçiliyi vəzifəsini özündə ehtiva edən ədəbi tənqidin mühüm ifadə vasitələrindən biri də təzkirə janrıdır. Müasir dövrün antologiyalarını xatırladan təzkirələrdə şairlərin həyatı, yaradıcılığı, şəxsiyyəti haqqında fikirlər söylənmiş, əsərlərindən nümunələr verilmişdir. "Zikr etmək", "anmaq", "xatırlamaq" mənalarını verən təzkirə ilk dəfə ərəb ədəbiyyatında meydana gəlmiş, daha sonra fars, oradan isə türk ədəbiyyatına keçmişdir. Bu janrda yazılmış əsərlər əsasən nəsr formasında olsa da, nəsrlə yanaşı nəzmlə yazılmış parçalara da yer verilmiş təzkirələrə rast gəlmək mümkündür.

## Əsas hissə / *Main part*

Aid olduğu dövr haqqında çox əhəmiyyətli məlumatları özündə əks etdirən təzkirələr üç hissədən müqəddimə, söz sənətkarları haqqında məlumatların verildiyi əsas hissə və xatimədən ibarət olmaqla yazılmışdır. Müqəddimədə əsərin ithaf olunduğu şəxs haqqında mədhiyyə, təzkirə müəllifinin şeir, sənət haqqında düşüncələri, əsərin yazılması ilə bağlı məlumatlar verilmişdir. Xatimə hissəsində isə təzkirənin tamamlanma tarixi, qarşıya çıxan çətinliklər, əsərin xüsusiyyətləri və s. əks olunmuşdur.

Ədəbiyyatşünaslığın öyrənilməsində təzkirələrin mühüm əhəmiyyəti olsa da, bəzi kitablarda onların etibarlı mənbə olmadığı da qeyd olunmaqdadır. Belə ki, bu janrda yazılmış əsərlərin obyektivlikdən uzaq olması, şairlərin həyatına dair verilən məlumatların natamamlığı, onların yaradıcılığına aid bütün əsərlərin verilməməsi belə mülahizələrin yaranmasına səbəb olmuşdur.

Bu janr haqqında müəyyən məlumatlar lüğətlərdə, ədəbiyyatşünaslığa dair nəzəriyyə kitablarında öz əksini tapmışdır. Ədəbi tənqidin digər klassik janrları ilə müqayisədə təzkirə haqqında Azərbaycan ədəbiyyatşünaslığında bir qədər geniş məlumat verilmişdir.

Görkəmli tədqiqatçı Əziz Mirəhmədov "Ədəbiyyatşünaslıq terminləri lüğət"ində təzkirələrdən orta əsrlərdə Şərqdə geniş yayılmış elmi-ədəbi əsər kimi bəhs etmiş, əsasən ədəbiyyatçılar tərəfindən yazılan və uzun müddət əlyazmalar halında yayılan bu mənbələrdə məşhur ədəbi şəxsiyyətlər, hadisələr, ayrı-ayrı əsərlər haqqında məlumat verildiyini və həmin əsərlərdə bioqrafik cəhət və sənətkarlıq məsələlərinin üstünlük təşkil etdiyini vurğulamışdır. Eyni zamanda alim ədəbiyyat tarixinin öyrənilməsində mühüm rolu olan təzkirələrə tənqidi yanaşmaq, bəzi müəlliflərin qeyri-obyektiv, sinfi məqsədlə təhrif olunmuş iddialarına aldanmamaq lazım olduğunu da bildirmişdir. Müasir dövrdə artıq bu tipli əsərlərin yaranmadığını yazan tədqiqatçı təzkirələrin "Ədəbiyyat

tarixi", "Tarixi oçerklər", "Tədqiqlər" və s. adlarla yazılan əsərlərlə əvəz olunduğunu qeyd etmişdir [2, s.202].

Professor Vilayət Quliyev və Xalq yazıçısı Elçinin "Özümüz və sözümüz" adlı ədəbiyyatşünaslıq terminləri lüğətində də təzkirə janrının izahına yer verilmiş, təzkirə sözünün mənasından, janrın xüsusiyyətlərindən bəhs olunaraq klassiklərin həyatı və yaradıcılığını, eləcə də bütünlükdə ədəbiyyat tarixini öyrənmək baxımından qiymətli mənbə olduğu vurğulanmışdır [1, s.290].

Akademik Kamal Talıbzadənin "Azərbaycan ədəbi tənqidinin tarixi (1800-1920)" kitabında da təzkirəyə müəyyən yer verilmiş bu janrdan orta əsr ədəbi tənqidinin tarixi inkişafına güclü təsir göstərən mənbələrdən biri kimi bəhs olunmuşdur. Müəllif yazdığı qısa xülasədə görkəmli təzkirəçilərdən Sadiq bəy Əfşarın, Lütfəli bəy Azərin adlarını çəkmiş, "Məcməül xəvas" ("Seçilmişlər toplusu"), "Atəşgədə" əsərləri haqqında məlumat vermişdir. Bununla yanaşı, tənqidçi alim təzkirəni toplu, antologiya, məcmuə kimi qiymətləndirənlərin doğru mövqe tutmadığını, təzkirənin orta əsrlərdə ədəbiyyat tarixini işıqlandıran ən vacib janr olduğunu, ədəbi fikrin və zövqün inkişafında əhəmiyyətli rol oynadığını vurğulamışdır [5, s.31].

Professor Vaqif Sultanlının "Azərbaycan ədəbi tənqidi" adlı kitabında isə təzkirədən klassik ədəbi irsin toplanması, sistemləşdirilməsi, saf-çürük edilməsi, yayılması, təbliği və nəsildən-nəsilə ötürülməsi sahəsində aparıcı mövqeyə malik mənbə kimi bəhs olunmuşdur. Müəllif qeyd edir ki, təzkirələr yalnız ədəbiyyatla deyil, eləcə də digər elm sahələrini əhatə etdiyi üçün mövzusuna görə bir neçə yerə ayrılır: "Onu da qeyd etmək lazımdır ki, təzkirələr yalnız ədəbiyyatla bağlı olmamış, tarix, din, təsəvvüf, musiqi, tibb və başqa elm sahələrini də əhatə etmişdir. Bu mənada təzkirələri mövzusuna görə üç qismə ayırırlar:

"Təzkireyi-şüəra" – şairlər haqqında təzkirələr;

"Təzkireyi-elmiyyə" – elm xadimləri haqqında təzkirələr;

"Təzkireyi-övliya" – din xadimləri haqqında təzkirələr" [4, s.34].

Təzkirələr haqqında müxtəlif dissertasiyalar da mövcuddur. "Ədəbiyyat tarixinin öyrənilməsində təzkirələrin rolu və Ağa Məhəmməd Müctəhidzadənin "Riyazül-Aşiqin" təzkirəsi" adlı dissertasiyanın müəllifi Aljira Topalova Azərbaycan şairlərinin öyrənilməsində yalnız Azərbaycanca yazılmış təzkirələrdən istifadə edilməsinin məqsədəuyğun olduğunu vurğulayaraq təzkirələri üç qrupa ayırır:

1. Azərbaycan türklərinin Azərbaycan türkcəsi ilə tərtib etdikləri təzkirələr;
2. Azərbaycan türklərinin ərəbcə və farsca tərtib etdikləri təzkirələr;
3. Başqa millətdən olan müəlliflərin Azərbaycan türklərindən olan sənətkarlar barədə öz təzkirələrində verdikləri məlumatlar [6, s.30].

Təzkirələrə aid dəyərli tədqiqatlardan birinin müəllifi Vüsalə Musalıdır. Müəllifin "Azərbaycan təzkirəçilik tarixi" adlı monoqrafiyasında ədəbi tənqidin ilkin qaynaqlarından biri olan təzkirələrin təsnifatı aparılmış, bu janrda yazılmış nümunələrin dili, strukturu, əhatə etdiyi coğrafiya və zaman, tarixi əsərlərin təzkirə hissəsi, təzkirə xarakterli əsərlər, Azərbaycan təzkirələrinin nəşri vəziyyəti və tədqiq tarixi öyrənilmişdir. Bu kitabda ilk dəfə olaraq Azərbaycan təzkirəçiliyinin XVI-XXI əsrlər mərhələsi araşdırılmış və qırxa yaxın əsər təhlil edilmişdir. Müəllif bu yazı nümunələrini tərtib prinsiplərinə görə belə təsnifləndirmişdir:

- Təbəqə üsulu ilə yazılmış təzkirələr;
- Əlifba prinsipi əsasında tərtib olunmuş təzkirələr;
- Coğrafi prinsipə görə yazılmış təzkirələr;
- Xronoloji prinsip əsasında tərtib olunmuş təzkirələr;
- Ədəbi nümunələrin janrına görə tərtib olunmuş təzkirələr;
- Sistemsiz tərtib olunmuş təzkirələr.

Əsərlərini Herat təzkirəçilik məktəbinin tanınmış nümayəndələri Əlişir Nəvai və Dövlətşah Səmərqəndinin təzkirələrinin təsiri ilə qələmə alan Azərbaycan təzkirəçiləri ilə Osmanlı təzkirə-

çilərini müqayisəli araşdıran tədqiqatçı yazmışdır: “Azərbaycan və Osmanlı təzkirələrini müqayisə etdikdə bəzi oxşar və fərqli cəhətlərin olduğu üzə çıxır. Bu oxşar və fərqli xüsusiyyətləri aşağıdakı maddələrlə təqdim etmək mümkündür:

- Təzkirələrin yazılma dinamikası baxımından müqayisə;
- Təzkirələrin strukturundakı oxşarlıqlar və fərqlər;
- Təzkirələrin əhatə etdiyi coğrafiya və dil nöqteyi-nəzərindən uyğunluqlar və fərqlər;
- Müəlliflik ilə bağlı fərqlər.

Azərbaycan təzkirəçiləri say etibarilə Osmanlı təzkirəçilərindən daha çox əsər qələmə almışlar. 41 Azərbaycan təzkirəçisi 46 təzkirə tərtibləmişdir. Osmanlı təzkirələrinin sayı isə 32-dir” [3, s.82].

Eyni zamanda monoqrafiyada Azərbaycan təzkirəçiliyinin inkişaf mərhələlərini XVI, XVII, XVIII, XIX, XX əsrlər olmaqla bölərək, təzkirəçilərin həyatı və yaradıcılığı haqqında məlumat vermiş, əsərin yazılma tarixi, kimə ithaf olunması, dili, strukturu, dövrün digər təzkirələrdən fərqi göstərilmişdir.

Lakin onu da qeyd edək ki, janr haqqında geniş bəhs olunmuş bu əsərdə təəssüf ki, təzkirə sözünün mənası, xüsusiyyətləri haqqında ayrıca bölməyə rast gəlmədik.

Azərbaycan ədəbiyyatında yazılmış ilk təzkirə Şah İsmayıl Xətayinin oğlu Sam Mirzə Səfəvi tərəfindən farsca qələmə alınan “Töhfeyi-Sami” əsəridir. Bir müqəddimə, yeddi fəsil və xatimədən ibarət olan bu təzkirədə böyük türk şairlərinə xüsusi fəsil ayrılmış, əsərin VI fəsli türk ədəbiyyatına həsr olunmuşdur. Təzkirədə XV əsrin ikinci yarısı XVI əsrin əvvəllərinə aid şairlər haqqında məlumat verilmişdir.

Azərbaycan dilində yazılmış ilk təzkirənin müəllifi isə Əhdi Bağdadi hesab olunur. İlk variantı müqəddimə, üç rövzə və bir xatimədən ibarət olan “Gülşəni-şüəra” əsəri çox çətin bir dillə qələmə alınmışdır. Təzkirədə Əflatun, Bəsiri, Pənahi, Cəlili, Xəlili, Ruhi, Rindi, Füzuli, Fəzli və başqa azərbaycanlı şairlər haqqında məlumat verilmişdir. Bundan əlavə, təzkirəyə tez-tez əlavələr olunması qeyd olunmaqdadır.

Sadiq bəy Əfşarın XVII əsrin əvvəllərində tamamlanmış və bir çox üstünlükləri ilə seçilən “Məcməül-xəvas” təzkirəsi Azərbaycan-cığatay dilində yazılmışdır. Əhatə dairəsi çox geniş olan bu əsər Azərbaycan, Türkiyə, İran, Orta Asiya və Hind ədəbi əlaqələrini öyrənmək baxımından geniş material verir.

Müəllif əsərdə Azərbaycan, eləcə də türkdilli şairlərə geniş yer vermiş, Füzuli bəhsini xüsusi məhəbbətlə yazaraq şairə məxsus mübahisəli fikirlərin aydınlaşması üçün əsaslı məlumatlar vermişdir. Bundan əlavə təzkirədə bədii əsərləri əsasən mövzusuna və üslubuna görə fərqləndirməyə çalışan müəllifin ayrı-ayrı sənətkarlar haqqında yazdığı fikirlər əsərin diqqəti cəlb edən xüsusiyyətlərindəndir.

Orta əsrlərin məşhur təzkirələrindən biri də Lütfəli bəy Azərin on doqquz ilə tamamladığı “Atəşgədə” təzkirəsidir. Özünəməxsus xüsusiyyətləri ilə seçilən bu təzkirədə 842 şair haqqında zəngin material verilmişdir. Əsərdə Lütfəli bəy Azər bədii yaradıcılıq məsələlərinə diqqət yetirməklə, faktlara ədəbiyyatçı münasibət bildirərək, müasir şairlərin əsərlərini öyrənməyə, toplamağa və qiymətləndirməyə olan həvəsi ilə Azərbaycan ədəbiyyatı tarixinə yeniliklər gətirmişdir. Əsərində Nizami Gəncəvini böyük rəğbətlə təqdim edən müəllif şeirin qiymətləndirilməsində sənətkar istedadını və əsərin məzmununu əsas bədii ölçülərdən biri hesab etmişdir.

XIX əsr Azərbaycan ədəbiyyatının tərəqqipərvər nümayəndələrindən biri olan Seyid Əzim Şirvani də təzkirə müəlliflərindəndir. Bu əsər dibaçə, təvəqqeyi-müəllif, müqəddimə və dörd fəsildən ibarətdir. Müqəddimədə Şirvani şair və şeirə münasibət haqqında məlumat vermiş, fikirlərini ayə və hədislərlə sübut etməyə çalışmışdır. AMEA Əlyazmalar İnstitutunda mühafizə olunan bu təzkirə geniş coğrafiyanın şairlərini əhatə etməsi baxımından Şərq ədəbiyyatının mühüm qaynaqlarından hesab olunur.

Adları çəkilən əsərlərdən başqa Mir Möhsün Nəvvabın "Təzkireyi-Nəvvab" əsəri də bunlar içərisində xüsusi yer tutmaqdadır.

**Nəticə / *Conclusion***

Onu da qeyd edək ki, təzkirə janrı ilə bərabər Azərbaycan ədəbi tənqidinin klassik janrlarına daxil olan şərh, ədəbi risalə və dibaçə haqqında mövcud olan məlumatlar Azərbaycanda ədəbi fikrin XIX əsrdən başlanması haqqında bəzi sovet ədəbiyyatşünaslarının mövqelərinin yanlış olduğunu göstərir.

**Ədəbiyyat / *References***


1. Elçin. Özümüz və sözümüz / Elçin, V.Quliyev. – Bakı: Şərq-Qərb, – 2016. – 319 s.
2. Mirəhmədov, Ə.M. Ədəbiyyatşünaslıq. Ensiklopedik lüğət / Ə.M.Mirəhmədov. – Bakı: Azərbaycan ensiklopediyası, – 1998. – 240 s.
3. Musalı, V. Azərbaycan təzkirəçilik tarixi / V.Musalı. – Bakı: Elm və təhsil, – 2012. – 377 s.
4. Sultanlı, V. Azərbaycan ədəbi tənqidi / V.Sultanlı. – Bakı: Nurlar, – 2019. – 312 s.
5. Talıbzadə, K.A. Azərbaycan ədəbi tənqidinin tarixi / K.Talıbzadə. – Bakı: Şərq-Qərb, – 2015. – 342 s.
6. Topalova, A.İ. Ədəbiyyat tarixinin öyrənilməsində təzkirələrin rolu və Ağa Məhəmməd Müctəhidzadənin "Riyazül-Aşiqin" təzkirəsi: / filologiya elmləri namizədi dis. / – Bakı, 2001. – 124 s.


## Жанр обзоры в азербайджанской литературной критике


**Гульшан Зейналова**
Бакинский Государственный Университет
E-mail: gulsenz@bk.ru



**Резюме.** В классический период одним из важных средств выражения литературной критики был жанр обзора, что означает упомянуть, вспомнить, припомнить. Мысли о жизни, творчестве и личности поэтов отражены в тазкирах, выполняющих задачу литературной историографии. Большое значение в изучении литературоведения имеют тазкиры, состоящие из трех частей: введения, основной части и заключения. Однако некоторые источники утверждают, что они не являются надежным источником. Причиной этого является отсутствие объективной оценки произведений в некоторых тазкирах, неполнота представленных сведений, недостаточное освещение творчества поэтов.

В отличие от других средств выражения критики, существовавших в средние века, жанр обзора получил достаточно широкое распространение в азербайджанском литературоведении. Получить информацию о жанре обзора можно в словарях, теоретических книгах, а также в трудах отдельных исследователей.

В азербайджанском литературоведении интересными примерами обзора являются «Тохфейи-Сами» Сэма Мирзы Сефеви, «Гульшани-Шуара» Ахди Багдади, «Маджмаул-Хавас» Садик бея Афшара, «Аташгада» Лутфали бея Азера, «Тазкирейи-Наваб» Мира Мохсена Наваба. Сам Мирза Сафави является автором первой тазкиры в азербайджанской литературе, а Ахди Багдади считается автором первой тазкиры, написанной на азербайджанском языке.



**Ключевые слова:** литературоведение, средневековье, жанр, классический жанр, тазкира